# Erməni faşizminin məhvi Xocalı soyqırımını törədənlərə layiqli cavabdır

## *Prezident, Ali Baş Komandan İlham Əliyev, qüdrətli Azərbaycan Ordusu ermənilərin onilliklər boyunca hazırladıqları daşnak ideologiyasını məhv etdilər*



"Biz təkcə öz ərazi bütövlüyümüzü bərpa etməmişik, biz erməni faşizmini məhv etmişik, erməni vəhşiliyini məhv etmişik. Biz bölgəmizi faşist ideologiyasından tam xilas etməsək də, onun böyük hissəsini məhv etmişik. Buna görə bizim şanlı Qələbəmiz bölgə üçün, dünya üçün çox böyük əhəmiyyət daşıyır." Prezident, Ali Baş Komandan İlham Əliyev bu sözləri ilə bildirir ki, 44 gün davam edən, xalqımıza zəfər qazandıran Vətən müharibəsi illərdən bəri soydaşlarımıza qarşı qəddarlıq, vəhşilik göstərən erməni quldurlarının törətdikləri qətliamlara, soyqırımlara cavabdır.

Türkçülüyə qarşı nifrəti milli ideologiyalarının əsas prinsipi, etnik təmizləmə siyasəti kimi həyata keçirən, ötən əsrdə bir neçə dəfə Bakıda, ölkəmizin bütün bölgələrində törətdikləri qətliamlar zamanı öldürdükləri günahsız insanların faciəsindən ürəkləri soyumayan ermənilər Dağlıq Qarabağ münaqişəsini başlamaqla qana hərislik xüsusiyyətlərini davam etdirdilər. 1992-ci ilin 25-26 fevralında erməni quldur dəstələrinin keçmiş SSRİ-nin 366-cı motoatıcı alayı ilə birlikdə Xocalıda törətdiyi soyqırımı erməni vəhşiliyinin tarixdə görünməmiş qəddarlığı idi. Həmin gün ermənilər imperiya ordusunun tərkibində dinc sakinlərə qarşı ağlasığmaz vəhşiliklər törətdilər.

"Bizim onlara münasibətimiz çox müsbət idi. Onlar da özlərini burada cəmiyyətin normal üzvləri kimi aparırdılar. Heç bir ədavətdən, düşmənçilikdən söhbət gedə bilməzdi. Bəs necə oldu ki, 1992-93-cü illərdə onlar bizə qarşı bu qədər qəddarlıq göstərdilər? Xocalı soyqırımı, günahsız insanların öldürülməsi ilə nəticələnən onların digər hərbi əməliyyatları, dinc əhaliyə qarşı bu qədər qəddarlıq. Deməli, bunların ürəyində bu düşmənçilik toxumları həmişə var idi. İndi bu gün Azərbaycan onların belini qırıb, onların başını əzib, onların ordusunu məhv edib, onların ideologiyasını məhv edib, illər boyunca, onilliklər boyunca onların yetişdirdikləri ideoloji əsasları məhv edib" söyləyən Prezident İlham Əliyev bir zamanlar qonaqpərvər azərbaycanlıların ermənilərə göstərdikləri insanlığın əvəzinə törədilən soyqırımı nankorluq adlandırır. "Hesab edirəm ki, müasir dünya ikinci belə vəhşilik görməmişdir. Əliyalın insanları yandırıblar, öldürüblər, uşaqları yandırıblar. Bütün binaları, məscidlərimizi dağıdıblar. Erməni faşizmi ən qəddar, ən təhlükəli, ən mənfur, ən çirkin ideologiyadır və biz bu ideologiyanı məhv etdik. Hesab edirəm ki, illər keçdikcə bizim bu tarixi xidmətlər dünya tərəfindən daha da dolğun şəkildə dərk ediləcək" sözləri ilə erməni millətinin ideologiyasının əsasını təşkil edən insanlara qarşı nifrəti vandalizmadlandıran Prezident İlham Əliyev Ermənistanın bir dövlət kimi gələcəyinin böyük şübhə altında olacağını bildirir.

Xatın, Holokost, Sonqmi, Liditşe, Babi Yar, Ruanda və Serebrenitsa kimi soyqırımları bəşəriyyətə qarşı cinayətlər sırasında yer alır. İnsanların kütləvi qətli ilə tarixdə baş verən soyqırımlar çox olsa da , Xocalı faciəsi dəhşətləri ilə seçilir. Ermənilər Hitler faşizmindən də qəddar olduqlarını Xocalı qətliamı ilə sübut etdilər. Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi kimi mənfur planarına başlamazdan əvvəl, 1988-ci ildə Qərbi Azərbaycanda-Vardenisdə, Quqarkda, Qacaranda, Qafanda, Gorusda, Alaverdidə qanlı aksiyalar törədərək 250 mindən artıq soydaşlarımızı doğma torpaqları olan Qərbi Azərbaycandan son nəfərinə qədər çıxaran, yüzlərlə soydaşımızı qətlə yetirən erməni cəlladlarının həyata keçirdikləri deportasiyaları planlaşdırdıqları soyqırımların ilk qanlı faciələri idi. Tarixi həqiqətlərdən də aydın olur ki, etnik təmizləmə, deportasiya , insanlığa qarşı bəşəri cinayət, qorxulu kabus olan soyqırımların, kütləvi insan ölümü ilə nəticələnən terrorların müəlliflərindən olan daşnak ideoloqlarının hazırladıqları bütün planların əsasında qan izləri, ölüm qorxusu dayanır.

XX əsrin ən qanlı faciəsi hesab edilən Xocalı faciəsini "Sumqayıt hadisələrinə cavab" adlandıran ermənilər təcavüzkarlıq siyasətlərini, illərdən bəri hazırladıqları planlarını qan tökməklə həyata keçirdilər.

"Mən əminəm ki, gün gələcək Xocalı faciəsini törədən, dinc əhaliyə qarşı qəddarlıq göstərən, dinc əhalini məhv edən erməni cinayətkarları məhkəmə qarşısında cavab verəcəklər", "Nə üçün Ermənistanın indiki rəhbərlərinə qarşı- hansılar ki, bilavasitə Xocalı soyqırımında iştirak etmişlər, əlləri Azərbaycan xalqının qanına batmışdır,- beynəlxalq tribunal təşkil olunmur, nə üçün onlar qınaq obyektinə çevrilmirlər" söyləyən Prezident İlham Əliyevin xalqın iradəsini əks etdirən bu sözlərini zaman öz hökmü ilə təsdiqlədi. İkinci Qarabağ savaşında Ermənistana öldürücü zərbə vuran Azərbaycan Ordusu təkcə Xocalıda qətlə yetirilənlərin deyil, erməni vəhşiliyinin qurbanı olan bütün soydaşlarımızın intiqamını aldı. Uşaqlarını körpəlikdən türkə qarşı nifrət ruhunda tərbiyə edən ermənilərin Xocalıdakı qətliamları ruhunun qidası adlandıran Zori Balayan kimi bütün daşnak ideoloqları bəşər tarixində təkrarı olmayan vəhşilikdən zövq alan qaniçənlərdirlər.

Xocalı soyqırımının dözülməz mənzərəsindən, erməni qəddarlığından heyrətə gələn xarici jurnalistlər qadınların, uşaqların, qocaların eybəcər hala salınmış cəsədlərindən dəhşətə gəldiklərini yazırdılar.

Meyitlərin yandırılması ilə məşğul olan "Qaflan" erməni qrupunun Xocalının bir kilometrliyində yerləşən ərazidə körpələri diri-diri yandırdığını müşahidə edən xarici jurnalistlər meyitlərdən düzəldilən körpüdən keçdiklərini ürək ağrısı ilə qələmə aldıqlarını bildirirdilər. Xocalıda bir gecədə 63-ü uşaq, 106-sı qadın və 70-i yaşlı insan olmaqla 613 azərbaycanlının qətlə yetirilməsi, 1275 sakinin əsir düşməsi 26 uşağın hər iki valideynindən, 130 körpənin isə bir valideynindən məhrum olması görünməmiş, ancaq ermənilərə məxsus cinayət idi. Uşaqları belə qətlə yetirən ermənilər sonrakı illərdə də bu əməllərini davam etdirdilər. Sədərək kənd sakinləri Malik və Elvin qardaşlarını, Füzuli rayonu, Alxanlı kənd sakini, 2 yaşlı Zəhranı və nənəsini, Tovuz rayon sakini 13 yaşlı Aygün Şahmalıyevanı, 9 yaşlı Ağdam rayon sakini Fariz Bədəlovu qətlə yetirən ermənilər Qərbi Azərbaycanda 10-13 yaşlı uşaqları dəmir boruya doldurub, ətrafına mazut töküb yandırmış, onları əzabla öldürmüşlər.

O zaman bu vəhşilikləri görmək istəməyən beynəlxalq ictimaiyyət, erməni havadarları Xocalı soyqırımını sükutla qarşıladılar. Yalnız 1994-cü ildə ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə Milli Məclisin sessiyasında Xocalı faciəsi soyqırımı kimi tanındı. Xocalı soyqırımının dünyada tanıdılması istiqamətində davamlı təbliğat aparan Heydər Əliyev Fondunun təşəbbüsü ilə qətliam bu gün də dünya ictimaiyyətinə çatdırılır. 57 ölkənin gənclər təşkilatlarını birləşdirən İƏT-nin Gənclər Forumu İdarə Heyətinin sessiyasında qurumun mədəniyyətlərarası və sivilizasiyalararası dialoq məsələləri üzrə Baş əlaqələndiricisi, Heydər Əliyev Fondunun vitse-prezidenti, Leyla Əliyevanın təşəbbüsü ilə başlanmış, bütün dünya birliyi tərəfindən dəstəklənən " Qarabağa azadlıq, Xocalıya ədalət!" beynəlxalq kampaniyasına qoşulanların sayı artır. Paraqvay parlamentinin saytında yerləşdirilən bəyanatda Xocalı qətliamı XX əsrdə törədilən ən qanlı faciə, erməni vəhşiliyinin nümunəsi adlandırıldı. Pakistan, Kolumbiya, Meksika Xocalı soyqırımını rəsmən tanıyır. ABŞ-ın 15 ştatında, Çexiya, Rumıniya paramentlərində faciə ilə bağlı qərarlar qəbul olunub, Türkiyə Böyük Millət Məclisində dinləmələr keçirilib. İslam Əməkdaşlıq Təşkilatı Xocalı soyqırımı ilə bağlı qətnamə qəbul edib. Avropa Şurası, ATƏT, BMT səviyyəsində Xocalı faciəsi ilə bağlı sənədlər yayılıb.

Xocalı faciəsi "Beynəlxalq Müharibə Qurbanları Memorialı"na daxil edilib. Xocalı faciəsinin 20-ci ildönümündə İstanbulun Taksim meydanında Xocalı soyqırımı qurbanlarının xatirəsinə həsr olunmuş aksiyalarda 1 milyondan artıq insan iştirak edib.

Xocalı soyqırımını tanıyanların sayının artması Prezident İlham Əliyevin "Mən əminəm ki, gün gələcək Xocalı faciəsini törədən, dinc əhaliyə qarşı qəddarlıq göstərən, dinc əhalini məhv edən erməni cinayətkarları məhkəmə qarşısında cavab verəcəklər" sözünün reallaşdığını göstərir. 44 gün davam edən müharibədə düşmənə ağır zərbə vuran Azərbaycan Ordusunun Cəbrayılı, Füzulini, Ağdamı, Kəlbəcəri, Laçını, Qubadlını, Zəngilanı, Hadrutu,Şuşanı... işğaldan azad etməsi Xocalı qurbanlarının xatirəsinə hörmətdir. Xocalı soyqırımında əli olduğunu etiraf edən Ermənistanın sabiq prezidenti Serj Sarkisyanın "Xocalıya qədər Azərbaycan tərəfi elə bilirdi ki, bizimlə zarafat etmək olar. Onlar düşünürdülər ki, ermənilər mülki əhaliyə əl qaldıracaq insanlar deyil. Biz bu anlayışa ( stereotipə) son qoyduq" sözlərinə, biabırçı kapitulyasiyadan dərs almayan, başqa xəyallara düşən ermənilərə qalib ordunun Ali Baş Komandanı İlham Əliyevin " Bu dəmir yumruq onların belini qırdı, onların başını əzdi. Əgər bizə qarşı hər hansı bir təxribat törədilərsə, cavabımız çox sərt olacaq, çox peşman olacaqlar və yenə də acı məğlubiyyətlə üzləşəcəklər. Heç kim bizim qabağımızda dura bilməz. Bundan sonra həmişə belə olacaq" xəbərdarlığı da zarafat deyil, qalibə xas qətiyyətin ifadəsidir. Ermənistanın əlləri azərbaycanlıların qanına bulaşmış sabiq və indiki rəhbərləri Prezident İlham Əliyevin bu sözlərindən də nəticə çıxarsınlar: "Biz buraya qalib kimi gəlmişik, bayrağı da qaldırmışıq, azad edilmiş bütün torpaqlarda Azərbaycan bayrağı dalğalanır. Döyüşə-döyüşə gəlmişik. Heç kim bu torpaqları bizə elə-belə verməyib. Heç bir danışıqlar heç bir əhəmiyyətə malik deyildi. Biz gördük ki, ancaq öz gücümüzlə öz torpaqlarımızı azad etməliyik və bunu etdik. Bütün dünyaya gücümüzü sübut etdik, göstərdik, düşmənin başını əzdik. Düşməni məcbur etdik ki, qabağımızda diz çöksün, kapitulyasiya aktına imza atsın. Belə də oldu və alçaldıcı kapitulyasiya aktı tarixdə əbədi qalacaq."

**Xuraman İsmayılqızı,**
***"İki sahil"***